# AZƏRBAYCANDA NİKAHLAR AZALIR, BOŞANMALAR ÇOXALIR

## NİKAH

- Evlənmənin qanuni şəklə salınmasıdır.
- Azərbaycan Respublikasında nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır və yalnız bu cür nikahlar hüquqi baxımdan tanınır.
- Azərbaycanda ailə-nikah hüquqları ailə və nikah haqqında Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz əksini tapmışdır;
- Konstitusiyamızın 34-cü maddəsinə uyğun olaraq «nikah qarşılıqlı razılıq əsasında bağlanır», «nikah dövlətin himayəsi altındadır», «ər və arvadın hüquqları bərabərdir».
- Azərbaycanda nikah bağlamaq üçün aşağı yaş həddi kişilər və qadınlar üçün 18 yaş müəyyən olunur.

## NİKAH MÜQAVİLƏSİ

- Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və ya nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir.

- Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur.

- Nikah müqaviləsində tərəflərin bir-birinin gəlirlərində iştirak üsulları, ailə xərclərində iştirak qaydası ilə bağlı öhdəlikləri, ər-arvadın əmlakının hüquqi rejimi müyyənləşdirilir.

- Nikah müqaviləsi həm də ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

- Nikah müqaviləsi ər-arvad arasında könüllü bağlansa da, tərəflərin hüquq və fəaliyyətini məhdudlaşdıra bilməz.

- Nikah müqaviləsi ər-arvadın övladla bağlı hüquq və vəzifələrini müəyyənləşdirə bilməz.

## Evlilik

- ❖ Evlilik birlikdəliyin təkbaşınaliq üzərində zəfəridir.
- ❖ Evlilik 'mən'i qoruyaraq biz ola bilməkdir

## BOŞANMA

- ✓ Boşanma – ər-arvadın ailə münasibətləri ilə bağlı öhdəliklərə rəsmi qaydada xitam verməsidir.
- ✓ Nikahın bağlanmasını və pozulmasını tənzimləyən Ailə Məcəlləsinə görə yalnız dövlət qeydiyyat orqanlarında bağlanmış və pozulmuş nikahlar hüquqi əhəmiyyətə malikdır.
- ✓ ***"Duygusal boşanma"– evlilikdə yetəri qədər "biz" ola bilmədiklərindən ər-arvadın eyni evdə faktiki ayrı yaşamasıdır.***

## NİKAHLAR və BOŞANMALARın stattistik ifadəsi

Nikah və boşanmalarla bağlı DSK-nin rəsmi rəqəmləri

| İllər | Nikah | Boşanma |
|---|---|---|
| 2009 | 78072 | 7784 |
| 2010 | 79172 | 9061 |
| 2011 | 88145 | 10747 |
| 2012 | 79065 | 11087 |
| 2013 | 86852 | 11730 |
| 2014 | 84912 | 12088 |
| 2015 | 68773 | 12764 |
| 2016 | 66771 | 13114 |
| 2017 | 62923 | 14514 |

***Nikah və boşanma əmsallarının dinamikası*** (min nəfər əhaliyə,‰)

| **İllər** | **Nikah əmsalı** | **Boşanma əmsalı** |
|---|---|---|
| 1991 | 10,40 | 1,50 |
| 1992 | 9,50 | 1,30 |
| 1993 | 8,10 | 0,90 |
| 1994 | 6,30 | 0,80 |
| 1995 | 5,70 | 0,80 |
| 1996 | 5,10 | 0,70 |
| 1997 | 6,10 | 0,80 |
| 1998 | 5,20 | 0,70 |
| 1999 | 4.80 | 0,60 |
| 2000 | 5,00 | 0,70 |
| 2001 | 5,20 | 0,70 |
| 2002 | 5,20 | 0,70 |
| 2003 | 6,90 | 0,80 |
| 2004 | 7,60 | 0,80 |
| 2005 | 8,70 | 1,10 |
| 2006 | 9,50 | 0,90 |
| 2007 | 9,70 | 1,00 |
| 2008 | 9,30 | 0,90 |
| 2009 | 8,80 | 0,90 |
| 2010 | 8,90 | 1,00 |
| 2011 | 9,70 | 1,20 |
| 2012 | 8,60 | 1,20 |
| 2013 | 9,30 | 1,30 |
| 2014 | 9,00 | 1,30 |
| 2015 | 7,20 | 1,30 |
| 2016 | 6,90 | 1,40 |
| 2017 | 6,50 | 1,50 |

# NƏSİLVERMƏ ƏMSALI AŞAĞI DÜŞÜR



## DİQQƏT: EVLİLİYİNİZ "HƏYACAN TƏBİLİ ÇALIR!"



- Həyat yoldaşınızın verdiklərinə deyil, verə bilmədiklərinə diddət yetirməyə başlamısınızsa,
- Olumsuz gidişat üçün onu ittiham etməyi alışkanlıq halına gətirmisinizsə,
- "Bəlkə də əvvəldən ona hiç aşiq olmadım"- diyə düşünürsənizsə,
- Həyat yoldaşınızla eyni cinsdən bir başqası diqqətinizi çəkməyə başlayıbsa,
- Bu insanınn szi çox yaxşı dinləyə və anlaya bildiyini düşünürsünüzsə,
- "Yaxşı bir ata ya da anadır, amma yaxşı bir həyat yoldaşı değil" kimi şikayətləriniz artıbsa,
- Bir çox şeyi sınamaqla birlikdə bunun münasibətlərinizi qorumağa kömək etməyəcəyini düşünürsünüzsə və ümidsizliyiniz artırsa

***ailənizi itirmək üçün ehtiyatlı olun: evliliyiniz "həyəcan təbili çalır".***

# BOŞANMANIN ƏSAS SƏBƏBLƏRİ

**1-Qadınların kişilərlə hakimiyyət uğrunda mübarizəsi:** Qadın əzilmə qorxusuyla, bərabərlik və azadlıq adına "Mənim dediyim olacaq" davasında evliyini itirir.

**2-Aldatma:** Cəmiyyətdə kişilər üçün xanımından başqa da bir çox seçim var. Virtual dostluqlar da aldatma olaylarını artırır.

**3-Ailələrin təsiri:** Adətən kşinin ailəsinin boşanmalara təsirindən danışılır, amma günümüzdə qadının ailəsinin də kişinin ailəsi qədər boşanmada tətikləyici təsiri var.

**4-Ünsiyyət xətaları:** Qadın və kişi yaradılışı arasındakı fərqlərlə bərabər, ünsiyyətdə də fərqlidirlər. Bunun nəzərə alınmaması yanlışlara yol açır.

**5-Maddi səbəblər:** Çalışan xanımlarda "mənim də pulum var" iddiası, çalışmayanlarda isə "kimsədən geri qalmamaq" dərdi ilə həddindən artıq istehlak arzusu ər-arvad arasında əhəmiyyətli bir problem halına gəlir.

**6-Yola gətirmə taktikası**: "Boşanaq" deyən tərəf, bunu, əslində istəmir; ancaq bundan qarşısındakını yola gətirmək üçün bir taktika kimi istifadə edir. "Mənim istədiyim kimi olmursa, ayrılaq o zaman" taktikası, adətən, təhdid edən adamın əlində partlayır. Bu taktikadan daha çox qadınlar istifadə edir.

**7-"El nə deyər" deyə boşanmaq:** Xüsusilə aldadılan qadınlar, aldatma hadisəsi ətrafdan duyulmuşsa evliliyini davam etdirmək istədiyi halda, sırf başqaları "Əri aldatdı; amma səsini çıxarmadı, uddu" deyəcəklər deyə qınanmamak üçün ayrıla bilirlər.

**8-Xəyalındakı həyat yoldaşını tapmaq üçün:** Sevgi-məhəbbət serialları və filmləri üzündən, oradakılar kimi bir məhəbbət yaşamaq və oradakı kimi bir sevgili-həyat yoldaşı tapmaq xəyali ilə ailəsini dağıtmaq faktları da çoxalır və buna daha çox qadınlarda rast gəlinir.

**9- Haqlı səbəblərlə boşanmaq:** Bəzi hallarda boşanmaq həqiqətən məcburiyyət olur. İçki, qumar, narkotik kimi pis vərdişlər, cinsi azğınlıqlar, sevgisizlik,

tərəflərdən birinin digərinə həyatı zindan etməyə qərarlı olması, bir tərəfin israrla ayrılma istəyi və s. kimi səbəblər olduğunda boşanmaq qaçılmaz olur.

## SAĞLAM, XOŞBƏXT EVLİLİYİ QORUMAQ ÜÇÜN TÖVSİYYƏLƏR:

- Önəmli məsələləri öncədən dəqiqləşdirin
- Xəyalınızdakı 'yaxşı' həyat yoldaşı modelindən imtina edin
- Həyat yoldaşınızın fərqliliyinə hörmətlə yanaşın
- Qadınların və kişilərin fərqli olduğunu unutmayın
- Həyat yoldaşınızla ünsiyyətə diqqət yetirin
- Açıq və dürüst olun.
- Bir-birinizə "yalnız qalmaq" haqqı tanıyın.
- Həyat yoldaşınıza təqdiredici sözlər söyləyin
- Uyğun bərabərlik imkanları yaradın
- "Mükəmməl" həyat yoldaşı olmağa cəhd etməyin
- Həyat yoldaşınızla vəzifələrin paylaşımını dəqiqləşdirin
- İlk əvvəl özünüzü mühakimə edin
- Köhnə əlaqələrinizi həyat yoldaşınızdan saxlamayın
- Problemləri tək-tək həll edin
- Problemlərinizi həll etməyi təxirə salmayın
- Problemləri yalnız danışmaqla həll edə biləcəyinizi unutmayın
- Həyat yoldaşınızdakı kiçik dəyişikliklərin fərqinə varın və inkişaf etdirməyə yardımçı olun
- Problemlərinizi həyat yoldaşınızın "gözüylə" də qiymətləndirməyə çalışın
- Münasibətlərinizi qorumaq üçün fədakarlıq etməkdən çəkinməyin.
- Ər-arvadın özlərinə aid məşguliyyətləri və maraqları olmalı olduğunu nəzərə alın

- Həyat yoldaşınızı tənqid və mühakimə etməkdən imtina edin
- Həyat yoldaşınızın ailəsinin əleyhinə danışmayın
- Həyat yoldaşınızın ailəsi ilə yaxşı münasibət saxlayın, ailələri üz-üzə qoymayın
- Evliliyinizlə əlaqəli özəl mövzuları ananızla paylaşmayın
- Həyat yoldaşınız tənqid olunanda onu tək buraxmayın
- Həyat yoldaşınızla evdənkənar paylaşımlarınızı artırın
- Həyat yoldaşınıza kiçik sürprizlər edin

**UNUTMAYIN, ailənin möhkəmliyi üçün**

- **daha az öyüd-məsləhət, daha çox paylaşım**
- **daha çox anlayış, daha az çözüm**
- **İnsana daha çox, problemə daha az diqqət yetirmək**